**Məhəmmədəli Etibar oğlu Seyidov** [133]

# ZƏMƏXŞƏRİNİN İSLAM DÜNYASINDAKI ÖNƏMİ

**Giriş.** İslam dünyasının görkəmli alimlərindən biri olan Məhəmməd ibn Ömər əz-Zəməxşəri elmi və ədəbi yaradıcılığı ilə böyük iz qoymuş şəxsiyyətlərindən biridir. O, dilçilik, təfsir, fəlsəfə və ədəbiyyat sahələrində dəyərli əsərlər yazmış və İslam elmi ənənəsinə əhəmiyyətli töhfələr vermişdir. Zəməxşəri öz dövründə yalnız bir alim kimi deyil, həm də mütəfəkkir və ensiklopedik biliklərə malik bir şəxs kimi tanınmışdır.

Onun əsərləri xüsusilə "əl-Kəşşaf" adlı təfsiri və ərəb dili sahəsindəki tətqiqatları ilə məşhurdur. Zəməxşəri həm məntiqi düşüncə tərzi, həm də dilçilik sahəsindəki araşdırılmaları ilə orta əsrlər elminin inkişafına töhfə vermişdir. Bu məqalədə Zəməxşərinin həyatı, elmi fəaliyyətinin əsas istiqamətləri və onun İslam dünyasına təsiri araşdırılacaqdır.

**Zəməxşərinin həyatı.** Zəməxşəri (tam adı: Cərullah Məhəmməd ibn Ömər Zəməxşəri) 11-12 əsrlərdə yaşamış məşhur ərəb dilçisi, ilahiyyatçı, Quran təfsirçisi və ədəbiyyatşünas alim idi. O, 1075-ci ildə Xarəzm bölgəsində yerləşən Zəməxşər qəsəbəsində anadan olmuşdur. Atası ona ilk təhsilini vermiş və oğlunun elmə olan maraqını görmüş, onun bir alim kimi yetişməli olduğuna qənaət gətirir. Lakin bəxt Zəməxşərinin üzünə gülmür, yüksək damadan düşdüyündən ayağını itirir. Bu səbəbdən atası təhsilin oğlu üçün çətin olacaqını düşünür, lakin Zəməxşəri təhsilinə davam etdirməkdə israrlı olduğu üçün atası buna icazə verir və onu Urgəncdəki mədrəsələrin birində oxudur.

Zəməxşərinin elmi həyatına gəldikdə isə, onun kiçik yaşlarının Zəməxşər şəhərində keçməsi onun bu yolda bir çox təcrübələr qazanmasına şərait yaratdı. Beləki, Səlcuq dövlətinin vəziri Nizamul - Məlik üçün elm ən mühüm amil hesab olunurdu. Onun alimlər içərisindən öz yaradıcı elmi fəaliyyətləri ilə fərqlənənləri seçərək onların uşaqlarının elmdə yüksək məqama çatana qədər təhsil almalarına dəstəyi və təminatı növbəti illərdə bir çox yüksək səviyyədə olan mahir yazıçıların ərsəyə gəlməsində böyük rol oynadı. Və belə bir elmi şəraitdə hələ uşaq olan Zəməxşərinin elmi yolla getməməsi və onun gələcəkdə mühim şəxsiyyətə çevrilməməsi mümkün deyildi. Daha sonra o, öz elmini Buxara şəhərində davam etdirmiş və bir çox böyük məllimlərdən dərs alaraq öz təlimini başa vurmuşdur. Buxara şəhəri o zamanın böyük şəxsiyyətlərinin mövcud olduğu, və eləcədə bir çox ədib və yazıçıların meydana çıxdığı bir şəhər idi. Zəməxşərinin atası oğlunu Buxara şəhərinə göndərməsi onun ərəb dili və ədəbiyyatı sahəsində mühüm biliklərə sahib olmasına səbəb oldu. Zəməxşəri öz şeirində hələ gənc yaşlarında bir çox elmlərə yiyələndiyini bildirir. Və eləcədə o, öz qəsidə divanında Nizamul - Məliki mədh edən bir çox misralar yazır.

Daha sonra ədib Xorasana yola düşür və burda Əbil – Fəth – Əli ibn əl – Huseyn əl – Ərdistani ilə əlaqə quru. O, Tac əd – Daulənin naibi olan və həmçinin sultan Əbil – Fəth Məlikşahın hakimiyyəti dövründə məktublar yazan nüfuzlu şəxsiyyətlərdən biri olmuşdur. Zəməxşəri onu mədh edərək onu kitabını oxumağa dəvət edir.

Daha sonra Ədib Bağdada yönəlir. Burada Zəməxşəri bir çox alimlərə qulaq asır, onlar ilə müzakirələr aparırdı. Əbhərinin Zəməxşəri barəsində yazdığı məlumata görə bu müzakirələr onun öz həyatını dəyişməsinə mühüm səbəb kimi göstərilə bilər, çünki, məhz bunda sonra Zəməxşəri dünyəvi pisliklərdən əl çəkir, və çirkin günahlarından tövbə etdiyini bildirir. Hicri təqvim ilə 516-cı ildə o, Məkkə şəhərinə ziyarət edir, və burada o, bir müddət iqamət edir. Onun burada iqamət etməsinin əsas səbəbləri Allaha ibadət etmək, ona itaətini sübut etməkdən ibarət ola bilər. Zəməxşərinin həyatının bu dövründə ən yadda qalan hadisələrdən biridə özünü "Allah qonşusu" adlandırmasıdır. Əsasən Zəməxşəri öz vətəni olan Xarəzmdə yaşadığı illərdə çəkdiyi yaşam sıxıntılarını, kasıblıq və yoxsulluq kimi amilləri Məkkə şəhərində əldə etdiyi mükəmməl şəratin ona unutdurduğu hissinə qapılır, və bunun doğru olmadığını, yaşadığı bütün çətinliklərə baxmayaraq yenədə vətəninin əziz olduğunu düşünüb onu ömürlük tərk etməyin yanlış bir iş olduğuna qənaət gətirir. Digər tərəfdən yaşı artdıqca ölümün özünə dahada yaxınlaşdığını hiss edən Zəməxşəri ömrünün son illərini Məkkədə Allaha ibatəd etmək ilə başa vurmaq istəmişdir, lakin görünür vətən həsrəti ona bu istəyini reallaşdırmaqa imkan verməmiş, yekunda Zəməxşəri vətəninə qayıdmışdır. Ömrünün sonuna qədər burada iqamət edən Zəməxşəri Hicri təqvim ilə 508-ci ildə Ərəfə gecəsində vəfat etmişdir.

**Yaradıcılığı və əsərləri.** Zəməxşərinin yaradıcılığı olduqca zəngin və rəngarəng olan əsərlər ilə yadda qalmışdır. Zəməxşərinin müəllifi olduğu əsərlərinin sayına gəldikdə isə, bu barədə dəqiq məlumat yoxdur, lakin buna baxmayaraq bir çox öz dövrünün ədəbi şəxsiyyətləri Zəməxşərinin müxtəlif əsərlərini fərqli saylarda adlarını çəkirlər. İbn Xülqan və İbn əd-Davudi 30 əsərinin adını, Yaqut 35 əsərinin adını, İsmail əl-Bağdadi 51 əsərinin adını qeyd edir. Mustafa əl-Cuyuni isə Zəməxşərinin 40 əsərinin qeyd etmişdir.

Zəməxşəri əsasən iki sahədə öz ustalığı ilə elmi sahədə fərqlənmişdir, bunlar təfsir və qrammatika sahələridir. O, qrammatika elminə dair fərqli mövqedə olmuşdur, onun fikrinə görə bu elm sadəcə Sibəvehyinin kitabından ibarət olmuş, bu sahədə dövrün tələblərinə cavab verəcək və həmçinin tələbə və tətqiqatçıların asanlıqla bu sahədə əqli fəaliyyətlə məşğul olma imkanı verə biləcəyi bir üsluba ehtiyac olduğunu bildirmişdir. Məhz bu səbəbdən Zəməxşəri dil sahəsində araşdırma aparmış və qrammatika elminin dilə ayaq uydura bilmədiyi qənaətinə gəlmişdir. Bu barədə o, özünün "Müfəssəl" əsərinin müqəddiməsində məlumat verərək qrammatika elminə dair bir çox məsələlər ilə üzləşdiyini, yeni bir üslub ortaya qoymaq planı olsada bu elmin bölmələri ayrı-ayrı müstəqil mövzular olduğundan ortaya bir həll qoya bilmədiyini bildirir. Digər tərəfdən Zəməxşərinin fikrinə görə qrammatika məsələləri arasında ən mühimi " Söz kəlimələr və dil tərkibi"-dir. Digər tərəfdən Zəməxşəri Qurani-Kərimin təfsiri sahəsində də olduqca tanınan ədiblərdən biri hesab olunur. Beləki, bu barədə Əbhəri öz elmi işində məlumat verərək ədibin

[133] Bakı Dövlət Universitetinin magistrantı. seyidmahammadali@gmail.com

Quranın təfsirində öz mükəmməl təfsir üslubu ilə seçilməsinin bir çox səbəblərinin olduğunu qeyd edir. Onlardan biri ədibin mötəzi təriqətinə mənsub olması və eləcədə özünün qatı şəkildə mötəzi olmasıdır və bu da öz növbəsində Zəməxşəriyə mövzunun təhlilində, diskusiyya və kəlam elmində mühim bir üstünlük verirdi. Daha bir səbəb isə söz və ifadələrin seçilməsində onun özünəməxsus ədəbi zövqünün olmasıdır. Bunlardan savayı ən mühüm səbəb onun güclü islami şəxsiyyətə malik olmasıdır, və təbiidir ki, bir müsəlman olaraq Zəməxşəri özünü islamın xidmətinə adayaraq islami məfhumlarının yayılması və bunlardan meydana gələn fikirlərin qorunub saxlanmasına çalışmışdır. Və eləcə də bir çox Quran ayələrinin təfsirində Zəməxşəri bu sahədə fəaliyyət göstərən çox sayda mütəfəkkirlər ilə mübahisələr etmiş və onları öz fikirlərinə görə tənqid etmişdir. Bir mötəzi kimi ədibin bir çox mövzulara fərqli baxışı olmuşdur. Buna misal olaraq biz onun təfsirlərini göstərə bilərik, beləki həmin təfsirlərlərində o, Allahı və cinləri görmək ilə bağlı olan hadisələri inkar edir, bundan əlavə hər hansısa bir adamın məhz digər adama həsəd aparmasına görə bu həsədin ona mənfi təsiri ola biləcəyi və sehr edənin sehr olunanana hər hansı bir mənfi təsiri ola biləcəyi fikrini inkar edir.

Zəməxşərinin Quran ayələrinə yazdığı təfsirlərindən birinə misal çəkək:
“ الذين ينقضون عهد الله من بعد ميثاقه ”-“Burada نقص kəliməsi ləğv etmək və bütünlüyü pozmağ mənasına gəlir. Əgər sual verilsəydi ki, nə üçün əhdin pozulması mövzusunda həmin kəlimə işlənmişdir, havaxt ki, əhd kəliməsi istiarə yolu ilə ip məfhumuna bənzədilir deyə cavab verərdim, çünki məhz həmin ip sayəsində əhdi bağlayan tərəflər bir biri ilə sıx əlaqədə ola bilir... bəlağətin gözəlliyinin əsas sirlərindən biridə məhz bənzədilən məfhumu gizli saxlamaqdır, daha sonra həmin məfhumun ifadə etdiyi mənaya uyğun olaraq başqa bir mənada olan söz işlədilir və həmin söz əvəz etdiyi məfhumun funksiyasını bir növ yerinə yetirir”. Əsasən ədibin bu ayənin təfsiri zamanı ip kəliməsindən istifadə etməsinə nəzər yetirsək hesab etmək olar ki, ədib burada Quranın 3-cü surəsi olan Ali İmranın 103-cü ayəsini nəzərdə tutmuşdur. Bu ayədə- “ Və hamılıqla Allahın ipinə yapışın və ayrılmayın” deyilir və ip kəliməsindən istifadə edilir. Məhz bu səbəbdən ola bilər ki, Zəməxşəri əvvəlki təfsirində əhd kəliməsinin ip məfhumuna bənzədildiyini və buna görə نقص feilindən istifadə olunduğunu qeyd etmişdir .Ümumilikdə götürəndə Zəməxşərinin təfsirləri öz bəlağəti, və həmçinin Quranın bəlağətini və onun əhatə etdiyi bənzərsiz söz birləşmələri və cümlələrin aydınlaşdırmaları cəhətindən olduqca təsirli və bir o qədərdə maraqlı əsərlər hesab oluna bilər.

Zəməxşərinin elmi əsərləri də öz dövrünün incilərindən sayılırdı. Əhbərinin Zəməxşəri barəsində yazdığı kitaba diqqət yetirdikdə məlum olur ki, ədibin yazdığı təfsirlər o dövrdə insanlar arasında çox mühim elmi mənbələr hesab olunurdu, hətta o dərəcədə ki, həmin dövrdə bir çox insan Zəməxşərinin “Kəşşaf” əsərinin mütaliəsindən əl çəkə bilmir, həmin əsər barəsində tez-tez müzakirələr aparır və ən əsası bu əsərin ehtiva etdiyi elmi biliklərdən faydalanırdılar. Digər tərəfdən adı çəkilən həmin təfsir əsərindən Zəməxşəridən sonrakı dövürlərdə yaşamış bir çox təfsirçilərdə istifadə etmiş və ondan faydalanmışdılar. Bu cür mühim əsər barəsində çox sayda alim və mütəfəkkirlərin rəyləri olması olduqca təbii haldır, və D.Kamal Əbhəri öz kitabında həmin alimlərdən bir neçəsinin adını çəkir. Onlardan biri Abdullah bin Ömər əş-Şəifidir, o, “Kəşşaf” əsərini yalnız Mötəzi fikirlərindən və rəylərindən ibarət olduğunu qeyd edir və Zəməxşəri hər bir surənin təfsiri ilə yanaşı onun fəziləti barəsindədə fikrini paylaşaraq oxucuların Quran ilə daha da maraqlanmalarına səbəb olduğunu vurğulayır. Daha sonra Abdullah bin Əhməd bin Mahmudun adı çəkilir, o, bu əsərin əhli sünnə məzhəbinə uyğun olduğunu, və eləcədə Qurani-Kərimdə mövcud olan gizli mənaların anlaşılması baxımından olduqca mühim və bir o qədərdə bəlağətli əsər olduğunu qeyd edir.

Ədibin müəllifi olduğu əsərlərin adlarına gəlincə isə, Əbhərinin Zəməxşəriyə həsr edilmiş kitabında bəzi əsərlərin aşağıdakı tərtib ilə adları çəkilir:

1) “Əsasül-Bəlağə”- ərəb dilində işlənən kəlimələri ehtiva edən bir lüğət xarakteri daşıyır. Bu əsərdə həmin sözlərin həm həqiqi, həm də məcazi mənaları araşdırılır.

2) “Əsasül-Təqdis”

3) “Əsrarül-Məvadi”- bu əsərin adını İsmail Bağdadi zikr edir.

4) “Əl-əsmə fil-luğa”- Doktor Əhməd əl-Hufinin qeyd etdiyinə görə bu əsər Zəməxşərinin müəllifi olduğu “Müqəddəmətül-Ədəb” əsərinin bir parçasıdır.

5) “Kitabül-Əcnas”

6) “Ətvaqul-Zəhəb”- Həcm bağımından kiçik əsər olmasına baxmayaraq, 100 məqaləni özündə ehtiva etmişdir. Burada dünyəvi nemətlərdən çəkinmə, fəlsəfə, nəsihət, cömərdlik və sair mövzulardan bəhs edilir.

7) “Əl-Məli fin-Nəhv”

8) “Ən-Nəmuzəc fin-Nəhv”- Zəməxşərinin qələmə aldığı kiçik əsərdir, o, həmin əsəri Əbil-Fəth Ali bin əl-Hüseyn əl- Ərdistaniyə hədiyyə etmişdir.

9) “Tac əl-Əsmi”

10) “Təsliyəd-Darir”

11) “Təlimul-Mubtəda va İrşədul-Muqtəda”- fars dilinə tərcümə olunmuşdur və ərəb dilini yeni öyrənənlər nəzərə alınaraq bu əsərin dili sadə və asand xarakter daşıyır.

12) “Təvabi”

13) “Əcbəl val-Əmkinə val-Miyə”- Adındanda göründüyü kimi bu əsər bir çox dağ, yer, su adlarını özündə ehtiva edir. Zəməxşəri bu çoğrafi adları əlifba sırası ilə tərtib etmişdir. Həmçinin bu əsərdə Zəməxşəri şeirdə qələmə almışdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Doktor Kamal Cibri Əbhəri. Əsər: Zəməxşərinin həyatı və müəllifi olduğu əsərləri. Dəru-l-Cənan.2014.
2. Müəllif bilinmir. Əsər: Zəməxşərinin əsərləri və onun qrammatik üslubu.il 1435.
3. Müəllif bilinmir. Əsər: Ətvaqu-z-Zəhəb li-l-Zəməxşəri. 12-ci əsr.
4. Adil Fəthi Riyad. Əsər: İbn Mülkün Zəməxşərinin qrammatikaya dair tətqiqatlarına etirazları.
5. Muhammad Zəğlul Səlam. əl-Ədəb fi-l-Asri-l-Eyubi.
6. Müəllif bilinmir. Əsər: Zəməxşərinin Quran təfsiri metodu.
7. Heybət Heybətov. Əsər: Cəmaləddin Məhəmməd İbn Əbdülqəni əl-Ərdəbilinin Şərhu-l-unmuzəc fi-n-nəhv əsəri. Bakı, "Zərdabi Nəşr" MMC,2019.
8. Mahmudov M. Ərəbcə yazmış şair və ədiblər. Bakı: Elm, 1993, 205 s.
9. Masse A. İslam. Tarixi oçerk. 3-cü nəşr. Bakı: AE Baş redaksiyası, 1992, 256 s.

**Açar sözlər:** Dilçi, İlahiyyatçı, Quran təfsirçisi, Ədəbiyyatşünas, Şeir, Əsər.
**Keywords:** Linguist, Theologian, Quran Interpreter, Literary Scholar, Poetry, Work.
**Ключевые слова:** Лингвист, Теолог, Толкователь Корана, Литературовед, Поэзия, Произведение.

## İmportance of Zamakhshari in the İslamic World
## Summary

One of the prominent scholars of the Islamic world, Muhammad ibn Umar al-Zamakhshari, is one of the personalities who left a significant mark with his scientific and literary creativity. He wrote valuable works in the fields of linguistics, tafsir (Quranic exegesis), philosophy, and literature, making important contributions to the Islamic scholarly tradition. Zamakhshari (full name: Jarullah Muhammad ibn Umar Zamakhshari) was a famous Arab linguist, theologian, Quran commentator, and literary scholar who lived in the 11th-12th centuries. He was born in 1075 in the town of Zamakhshar, located in the Khwarezm region. Zamakhshari's works are remembered for their richness and diversity. As for the number of works authored by Zamakhshari, there is no precise information available. However, many literary figures of his time mention various works of Zamakhshari, with different counts of his works. Ibn Khalkan and Ibn al-Dawudi mention the titles of 30 of his works, Yaqut lists 35, and Ismail al-Baghdadi mentions 51 of his works. Mustafa al-Cuyuni, on the other hand, mentions 40 of Zamakhshari's works.

## Значение Замахшари в исламском мире
## Резюме

Один из выдающихся ученых исламского мира, Мухаммад ибн Умар аз-Замахшари, является личностью, оставившей значительный след своими научными и литературными творениями. Он написал ценные работы в области лингвистики, тафсира (толкования Корана), философии и литературы, сделав важный вклад в исламскую научную традицию. Замахшари (полное имя: Джарулла Мухаммад ибн Умар Замахшари) был известным арабским лингвистом, теологом, комментатором Корана и литературоведом, который жил в XI-XII веках. Он родился в 1075 году в поселке Замахшар, расположенном в регионе Хорезм. Работы Замахшари запомнились своей богатостью и разнообразием. Что касается числа произведений, написанных Замахшари, то точной информации нет. Однако многие литературные фигуры его времени упоминают различные работы Замахшари, с разным количеством его произведений. Ибн Халкан и Ибн аль-Давуди упоминают 30 его произведений, Якуб — 35, а Исмаил аль-Багдади — 51 произведение. Мустфа аль-Джуиуни, в свою очередь, упоминает 40 произведений Замахшари.

**RƏYÇİ: dos. N.Əfəndiyeva**